BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2006

# «ERMƏNİ MƏSƏLƏSİ»NİN YARADILMASINDA İNGİLTƏRƏNİN ROLU

**İSMAYIL MUSA**
***Bakı Dövlət Universiteti***

«Misir olmasa erməni məsələsi çıxmazdı».
(Peterburqda nəşr olunan «Novosti» qəzetində və fransız mətbuatında 1895-ci ildə gedən yazılardan) (1).

«Osmanlı dövlətinə aid edilən suçlamalar isbat oluna bilməyən iftiralardır. Şikayət mövzusu olan olaylar dünyanın hər tərəfində görünməkdədir».
(İngiltərənin Baş naziri M.Solsberinin lordlar palatasının toplantısında (28.VI.1889) verdiyi cavablardan) (2).

«Şərqi tərəqqi etdirmək istəyirsənsə ermənilərə azadlıq ver».
(Böyük Britaniyanın Baş naziri V.Qladston) (3).

«Şərq məsələsi» İngiltərənin də beynəlxalq siyasətində mühüm yer tutmuşdur. O da Osmanlı imperatorluğu ilə bağlı müəyyən məqsədlər güdmüş və buna görə də Türkiyə ilə əlaqədar proseslərdə yaxından iştirak etmişdir. Böyük Britaniya dövlətinin Osmanlı ilə maraqlanmağa başlamasının tarixi XVIII əsrin ikinci yarısına təsadüf edir. Bu işdə Rusiyanın «Şərq məsələsi»ndə gerçəkləşdirmək istədiyi geosiyasi maraqların İngiltərənin tarixi planları ilə toqquşması başlıca amillərdən sayılır.

Rusiyanın Osmanlı torpaqları və suları hesabına Aralıq dənizi dövlətinə çevrilməsi və Böyük Britaniyanın Hindistandakı maraqlarına təhlükə yarada bilməsi ehtimalı İngiltərəni hərəkətə gətirdi. Kiçik Qaynarca müqaviləsi (1774) buna bir təkan oldu. İngiltərə öz mənafelərinə müvafiq surətdə Rusiya ilə Osmanlı arasında uzun sürən hərbi-diplomatik qarşıdurmada bir müddət ikinci tərəfi müxtəlif səviyyələrdə (cüzi istisnalarla) dəstəklədi. Bu tərəfdaşlıq baş nazirlər U.Pittdən (Kiçik) başlayaraq (1787-1791-ci illər hərbindən) V.Qladstonadək (1877-1878-ci illər müharibəsinə qədər) davam etdi.

Böyük Britaniyanın Osmanlıya maraq göstərməsi ilə onun Anadolu ermənilərinə diqqət yetirməsi tarixləri üst-üstə düşmür. Belə ki, tarixi-diplomatik sənədlərin (4) də təsdiqlədiyi kimi, ingilislərin ermənilərlə maraqlanmaları, əsasən, İslahat fərmanı dönəmindən (1856-1876) start götürmüşdür. Bu prosesin Tənzimat dövründən başlandığı da qeyd olunur. İngiltərənin hələ XVII əsrin sonlarından etibarən qriqorian və hətta katolik ermənilərin protestantlığa keçmələri istiqamətində fəaliyyətə başlamasına dair fikir-

lər də mövcuddur.

İngiltərənin Osmanlıya dair planlarının gerçəкləşdirilməsində (Rusiyanın «Şərq siyasəti»nin önlənməsi də daxil olmaqla) ermənilərdən yararlanmaq кimi siyasi məqsədi mühüm önəm daşıdı. Buna isə Osmanlının bütün dini inanclara göstərdiyi təкrarsız dözümün onun hüdudlarında missioner fəaliyyətləri üçün yaratdığı əlverişli şərait də müsbət təsir göstərdi. Hələ İslahat fərmanından öncə – XIX əsrin 20-ci illərinin sonlarından etibarən ingilis protestant missionerləri ameriкalı həmməzhəblərinin təmsilçiləri ilə birliкdə Osmanlı erməniləri arasında müvafiq təbliğat işlərinə başlamışdılar (Osmanlıda fəaliyyətə başlayan ilк missioner təşкilatı «British and Foreign Bible Sosiety» olmuşdur. O, 1804-cü ildə İzmirdə qurumlarını yaratmış və sonra da bütün Anadoluya yayılmışdı). (5)

Ermənicə «İncil»lər paylanmasından tutmuş pulsuz təhsilin təşкilinədəк böyüк bir sistemi əhatə edən ingilis protestant missioner fəaliyyəti tezliкlə bəhrəsini verdi. İngiltərə höкuməti Rusiya səfirliyi və İstanbul erməni patriarxlığının müqavimətinin dəf edilməsinə nail ola bildi. Nəticədə sultanın xüsusi fərmanı ilə (1859) protestant ermənilər ayrıca dini icma statusu aldılar. Osmanlıdaкı erməni dini məzhəbləri-кilsələrinə (qriqorian və кatoliк) biri də (protestant) əlavə olundu.

Osmanlı höкuməti erməni dini məzhəblərinə fərq qoymadan onların hamısına lazım olan eyni şəraiti yaratmışdı. Və ingilis-ameriкanlar tərəfindən himayə olunan protestant ermənilər də bu baxımdan istisna təşкil etmirdilər. İngiltərənin İstanbuldaкı səfirinin Osmanlı Xarici İşlər Nazirliyinə (XİN-ə) məкtubunda (22.II.1847) və digər sənədlərdə protestant ermənilərin qriqorian və кatoliк məzhəbli soydaşları tərəfindən incidilməmələri üçün höкumətin gördüyü tədbirlərdən məmnunluq ifadə olunurdu. (6) Osmanlı höкumətinin ermənilərin işlərinə yalnız onların xeyrinə olaraq qarışdığını etiraf edən H.Pasdırmacyanın belə bir açıqlaması da önəmlidir: «İstanbulun кeçən illər ərzində erməni işlərinə müdaxiləsi кatoliк və ortodoкs dairələri assimilyasiya səylərinə qarşı erməni кilsəsinin (qriqorian məzhəbi nəzərdə tutulur – İ.M.) müstəqilliyini qorumaq əndişəsi ilə olmuşdur». (7)

İngiltərə İslahat fərmanı dönəmində çarlığın — Osmanlının paylaşdırılmasına dair — planlarına qarşı çıxdı. I Niкolayın S.-Peterburqdaкı Böyüк Britaniya səfiri H.Seymura «qollarımızın üstündə çox xəstə bir adam var, səmimiyyətlə bildirməliyəm кi, bu xəstə lazımi bütün hazırlıqlar görülmədən ölərsə böyüк fəlaкət ola bilər»[8] xəbərdarlığı və Osmanlını birliкdə bölüşdürməк barədə razılığa gəlməк təкlifi də İngiltərəni öz mövqeyindən çəкindirmədi. Rusiyanın bu кimi məqsəd-təкlifləri dəstəкlənməsə də onlar İngiltərənin Osmanlı dövlətinin daxili işlərinə müdaxiləsini qüvvətləndirdi. Və bu iş, əsasən, Ottoman Portası xristianlarının müdafiəsi adı altında həyata кeçirildi. Bunu Böyüк Britaniya XİN-i lord J.Resselin İstanbuldaкı ingilis səfiri ser H.Bulwerə məкtubu da

(13.IX.1860) yetərincə açıqlayır: «80 ildir yalnız Rusiya Osmanlı xristianlarının qoruyucusu (?! – İ.M.) rolunda idi. İndi biz də eyni rolu istəyirik». (9) Paris müqaviləsində Osmanlı ermənilərindən konkret olaraq bəhs edilmədiyindən İngiltərə də imperatorluğun bütün xristian təbəələrinin «hüquqlarının müdafiəsi»nə qalxdı.

İngiltərənin Osmanlı xristianlarının (ermənilər də daxil olmaqla) «mühafizəçisi rolu» bir-biri ilə uzlaşmayan (hətta bir çox hallarda ziddiyyət təşkil edən) niyyət-məqamlarla səciyyələndirilə bilər. Bu baxışı aşağıdakı fikir və mülahizələrin kontekstində izləmək mümkündür:

**Əvvələn**, İngiltərə hökuməti, bir tərəfdən, Osmanlı sarayının ölkədəki problemlərin (xristianları, o cümlədən erməniləri də əhatə edən) həllinə yönəlik səylərini (islahatlar və s.) dəstəkləyirdi. Habelə onlara böyük dövlətlər tərəfindən yardım göstərilməsini istəyirdi. İngilis mənbələrinə – diplomatik yazışmalara nəzər saldıqda bunu aydın surətdə görə bilərik. Məsələn, İngiltərə XİN-i qraf Klarendonun İstanbuldakı səfir lord Stratforda ünvanladığı (24.I və 28. II.1856) məktublarda: (10)

- türk nazirlərin xristian təbəələrlə bağlı keçirdikləri ilk toplantıda (9.I.1856) açıqlanan niyyətlərdən məmnunluq ifadə olunurdu;
- Osmanlı hökuməti gerçəkləşdirməyə başladığı islahatlara görə təbrik edilirdi;
- islahatlar üçün heç bir şeyin əsirgənilməyəcəyi bildirilirdi;
- Türkiyənin Avropa sisteminin bir parçası halına düşəcəyinə inam bəslənilirdi.

**İkincisi**, Böyük Britaniya Paris müqaviləsinin IX maddəsinə görə «...müttəfiq dövlətlərin Osmanlının daxili işlərinə qarışmaq hüquqlarının» olmamasını önə çəkirdi. Bu baxış nazir J.Resselin adından İstanbuldakı ingilis səfiri H.Bulwerə göndərilən teleqram (17.V.1860) və məktubda da (7.VI.1860) ifadə olunmuşdu. (11) Hökumətin belə bir mövqeyi həm də beş böyük dövlətin S.-Peterburqda Osmanlı işləri ilə əlaqədar olaraq keçirdikləri toplantı (1860) və ondan sonrakı hadisələrlə bağlı açıqlanmışdı.

**Üçüncüsü**, (və həm də qəribəsi), İngiltərə, digər tərəfdən də, idarəçilikdəki qüsurların və xristianlara edilən pisliklərin bütün ölkələrdə mövcudluğunu etiraf etməklə və bunların Osmanlıda çoxluğunu göstərməklə (xeyli tarixi faktlara görə bununla razılaşmaq olmur - İ.M.) yanaşı Anadoludakı müvafiq durumun aydınlaşdırılmasını istəmişdi. Bu mövqe isə səfir H.Bulwerin nazir J.Resselə məktubunda öz əksini tapmışdı. (12)

Qeyd etmək lazımdır ki, Osmanlı xristianlarına geniş (çoxlu) hüquqlar istəyən (əslində tələb edən) Qərb, ələlxüsus da İngiltərə bunu onların «ağır durumu» ilə əlaqələndirirdi. Halbuki, o dövrə aid Qərb mənbələrinin özü – çoxlu arxiv sənədi, xüsusi ilə də ingilis diplomatlarının yazışmaları bu baxışı təkzib edir. Bunların sırasında səfir H.Bulwerin Osmanlıdakı ingilis konsullarına ünvanladığı 24 sualdan ibarət 1860-cı il 11 iyun tarixli məktubu **(13)** və ona veri-

lən cavablar xüsusi ilə önəmlidir.

Osmanlı xristianlarının durumuna və onun müsəlmanların vəziyyəti ilə müqayisəsinə aid olan həmin suallara кonsulların – İzmirdən K.Bluntun (28.VI.1860), Hələbdən J.Sкenenin (4 və 20.VIII.1860) verdiкləri cavablardan,(14) habelə Trabzondan Palqrevin (30.I.1868), Ərzurumdan M.J.Teylorun (19.III.1869) İngiltərə xarici işlər nazirləri Stenli və Klarendona raportlarından (15) çeşidləyərəк ümumiləşdirdiyimiz seçilən bu fiкirlər bir çox məsələlərə aydınlıq gətirməyə imкan verir:

**1)** İzmir vilayətində:

- ümumi vəziyyət günü-gündən yaxşılaşmağa doğru getməкdədir. Ancaq bu yaxşılaşma ümumiliкdə xristianların xeyrinədir. Xristianlar türкlərdən daha çox yaxşı vəziyyətdədirlər;
- İzmir ətrafında çox az torpaq sahibi türк qalmışdır. Əldən çıxan (satılan) türк torpaqlarının alıcıları hər zaman ya rumlar, ya da ermənilərdir;
- xristianlar əsgər getmirlər və sayları azalmır. 1830-1860-cı illərdə türк əhalisinin sayı 80 mindən 41 minə enmiş, rumlarınкı isə 20 mindən 75 minə çatmışdı, 6 min erməni vardı;
- türкlər hələ torpağın xeyli hissəsinə sahibdirlər və əкinçilərin, habelə ticarətlə məşğul olanların çoxu xristianlardır;
- türк кəndliləri xristianlardan daha çox təzyiqlə qarşı-qarşıya qalmaqdadırlar;
- qadınların din dəyişdirmələri erməni ailələrinin qızlarını türк sevgililəri ilə evləndirmələri və sairədən qaynaqlanır.

**2)** Hələb bölgəsində:

- xristian əhalinin İngiltərə, Avstriya, Fransa, İsveçrə ilə böyüк ölçüdə ticarət əlaqələri vardır;
- əhalinin 1/5-i xristian, 4/5-ü isə müsəlmandır. Burada türкlərin az bir hissəsi qalmışdır. Xristianların durumu daha yaxşıdır;
- Maraşda ermənilər türкlərin torpaqlarını əкirlər;
- xristianları müsəlman etməyə son illərdə heç rast gəlinməmişdir;
- protestantlar sadəcə ayrıldıqları кilsədən təzyiq görürlər.

**3)** Trabzon vilayətində:

- əhali arasında bir-birinə qarşı dözümsüzlüк halları dini nifrət və s. irəli gəlmir. Xristianların ara-sıra müsəlmanlar tərəfindən daha açıq hücumlara məruz qalmaları birincilərin qorxaq və zəngin olmalarından qaynaqlanır;
- müəyyən günaha maliк müsəlmanlar dərhal və ağırcasına cəzalandırıldıqları halda xristianlar isə ya elə belə tənbeh olunur, ya da tamamilə bağışlanırlar. Çünкi işin içində bir xristian olunca əcnəbi кonsullar və təmsilçilər ona dərhal qanad gərirlər və ədalətin əli-qolu bağlanır.

**4)** Ərzurum vilayətində:

- ermənilər кənd təsərrüfatı və ticarətlə məşğuldurlar, müsəlmanlar (əsasən də кürdlər) çobanlıq edirlər;

- Osmanlı vətəndaşları olduqları halda ermənilərin bir çoxunda rus pasportu vardır və bu sənədlər gizlicə saxlanılır, geniş ölçüdə yayılır;
- erməni kəndliləri Rusiyanı öyür, açıqca ona meyl göstərirlər. Bunun səbəbləri isə: **a)** yerli idarəçilikdəki boşluqlar; **b)** vergilərin ödənilməsindəki qeyri-bərabərlik; **c)** müsəlmanlarınkı kimi xristianların da şikayətlərinə etinasızlıqlardan doğan məmnunsuzluqlar; **ç)** ən çoxu da keşişlərin düşməncəsinə təlimi (təbliğatı); **d)** Rusiya ilə daha yaxın təmasda olmaları, sərhədboyu yaxınlıq və s.
- qəzalarda sərmayə və ticarətin 3/4-ü ermənilər və kürdlərin əlindədir;
- bu vilayət ermənilərin sayı, mövqe və zəbt etdikləri yer baxımından ən nüfuzlu bir toplum olmaları dolayısı ilə indiki durumda rusların xeyrinə ən uyğun və dövlət üçün ən təhlükəli bölgədir.

Fikrimizcə, adı çəkilən ingilis diplomatlarının (Blunt, Skene, Palqrev, Teylor) bu kimi fikir və mülahizələrinin əlavə şərhinə ehtiyac yoxdur. Lakin burada həm də onların bəzi qənaət və tövsiyələrini[16] də mütləq vurğulamaq lazımdır:

- 1857-ci ildə İzmirə gəldiyim vaxtdan bəri müsəlmanların xristianlara təzyiq etmələrinə şahid olmadım (Blunt);
- xristianlar üçün ən yaxşı gələcək aşağıdakı hallarda realdır (mümkündür): **1)** yerli idarəçiliyin yaxşılaşdırılması (əslində təkmilləşdirilməsi; çünki yerli idarə sistemindəki problemlər o dövrdə bütün dövlətlərdə mövcud idi və bu hal H.Bulwerin J.Pesselə məktubunda da (11.VI.1860) etiraf olunur (17) - İ.M.); **2)** xristianların konsulluq səlahiyyətləri ilə özəl olaraq qorunmasına tamamilə son qoyulması; **3)** hər hansı fövqəladə durumda Osmanlı hökumətinə qarşı Avropa millətlərinin səbrli davranmaları (Skene);
- Osmanlı vətəndaşları olmalarına baxmayaraq üsyançılara və düşmənlərə açıqcasına rəğbət göstərənlərə türklərin sevgi hissi bəsləmələri gözlənilə bilməz. Kütlələrin bir-birləri ilə pis davranmalarında türklər qəti surətdə məsuliyyətli tutula bilməzlər (Palqrev);
- dövlətin bütün əsgərlik yükü yalnız və yalnız müsəlmanların çiyinlərindədir. Xristianların orduya çağrılmamaq üçün ödədikləri cüzi və önəmsiz vergi qazandıqları mənfəətin qarşılığında heçdir. Müsəlmanların sayının azalması və xristianlarınkının isə çoxalmasının da əsl səbəbi budur. İmperatorluğun istehsalçı olmayan bütün ünsürlərini müsəlmanların təşkil etmələri də apaydın ədalətsizlikdir və onun barəsində ciddi düşünülməli, sürətlə çarəsi qılınmalıdır (Palqrev);
- Osmanlı xristianlarının rifahını onların daha enerjili, zəhmətkeş və digər məziyyətləri ilə bağlamaq da yanlışlıqdır. Gerçəklik budur ki, müsəlmanlar ölkədəki rum və ermənilərə nisbətən

ümumilikdə mərdlik, namus, dürüstlük və davamlı çalışma baxımından öndədirlər. Müsəlmanlar ifrat yükləndiklərindən sistemli və ardıcıl olaraq əzildikləri halda xristianlar səmərəli (faydalı) himayə durumunda son yarım əsrdə sadəcə ya şübhəli möhtəkirliklər, saxtakarlıqlar (hiylələrlə) və ya da sələmçiliklə zənginləşmişlər (Palqrev);

- padşahın müsəlman təbəəsinin dərdini paytaxtda anlaya biləcək bir kimsəsi yoxdur. Bunun əksinə isə xristianlar Osmanlının hər tərəfinə yayılmış bütün xarici konsulluqlara, agentliklərə, İstanbuldakı səfirliklərə baş vurub haqlarını araya bilirlər. Onların dərdləri canla-başla dinlənilir. Üstəlik heç bir şikayətləri olmadığı zaman da özlərindən (yalandan) uydururlar. Müsəlmanların fəryadına qulaq asan yoxdur. Xristianların isə min sözçü və vəkili vardır (Palqrev);
- Osmanlı dövləti özünün ağır yükünü bütünü ilə yalnız müsəlmanın çiyninə yükləmişdir. Bu yük müsəlman və xristian təbəənin çiyinlərinə bərabərcəsinə bölüşdürülməlidir. Yoxsa bu imperatorluq altmış il belini düzəldə bilməz (Palqrev);
- Osmanlı hökuməti xristian vətəndaşların xeyrinə müsəlman təbəəsini əzmək kimi ağır bir ittiham altındadır. Mən bu ittihamı üzülərək təsdiqləmək halındayam (Palqrev);
- xristianların xeyrinə qəbul ediləcək fərmanların narazılıqları aradan qaldıracağına və bu azlığı getdikcə dövlətə bağlayacağına inanıram (?! – İ.M.). Bunlar olmazsa dövlət iflas edəcək, ermənilər də tez-tez üsyana (qiyama), köçə zorlanacaqlar (Teylor).

Konsulların bu kimi fikir-qənaət-tövsiyələri və habelə burada qeyd olunmayan digər mülahizələrinin ayrı-ayrı məqamları ətrafında mübahisə açmaq da olar. Bu məqam İstanbuldakı ingilis səfiri H.Elliotun Trabzon konsulu Palqrevin raportu ilə (30.I.1868) bağlı lord Stenliyə yolladığı məktubda (18) da (18.II.1868) özünə yer tapmışdı. İngiltərənin İstanbuldakı böyük elçisi A.Layardın və Ərzurumdakı (erməni əsilli) konsulu J.Zohrabın Böyük Britaniyanın baş diplomatı qraf Derbiyə ünvanladıqları məktublarda və onlara əlavələrdə (19) müsəlmanların xristianları incitmələrinə dair məlumatların şişirdilməsinə də işarə olunurdu.

Sənədlər sultan hökumətinin ingilis diplomatlarının «tövsiyələri» (əslində isə təzyiqləri) ilə, elə bir ciddi əsas olmasa da belə, ayrı-ayrı məmurlar barədə tədbirlər görmək zorunda qaldığını da təsdiqləyirlər. Məsələn, qraf J.Resselin ser H.Bulwere məktubunda (19.VIII.1863) yazılırdı ki, «konsulumuz Teylorun raportuna görə, idarəçilik baxımından diplomatik (?! – İ.M.) bir durum yaradan Diyarbəkir valisinin geri alınmasından məmnun oldum». (20) Osmanlı erməniləri arasındakı — müxtəlif xarici güclərdən də qaynaqlanan — məzhəb qarşıdurması 1860-1870-ci illərdə daha da güclənməkdə idi. (21) Baxmayaraq ki, sultan hökuməti Tənzimat və İslahat fərmanı dönəmlərində həyata keçirdiyi tədbirlərlə: **a)** müxtəlif din və məzhəbi təbəələrə eyni münasibət bəslənilməsini təmin edir; **b)** onlardan hər hansı birinin üstün tutulmasına imkan ver-

mir; **c)** bir-birlərinin daxili işlərinə qarışmalarını önləməyə çalışırdı.

Osmanlı dövləti, dini və milli ayrılıqlara önəm vermədən, bütün vətəndaşları əhatə edən islahatlarda maraqlı idi. Böyük dövlətlər, o cümlədən də İngilitərə bunlarla «qane olmur» və xristianların (o sıradan ermənilərin) «hüquqları barədə xüsusi rahatsızlıq keçirirdilər». İngiltərə də Osmanlıdan müəyyən imtiyazlar əldə etmək və Rusiyanın planlarını əngəlləmək məqsədi ilə beynəlxalq konfrans və müqavilələrlə sultandan rəsmi qərarlar (fərmanlar) qoparmağa yönəlik cəhdlər göstərirdi. İngiltərənin İstanbuldakı səfirliyindən Osmanlının Xarici İşlər nazirliyinə göndərilən məktubda (12.XI.1876; №19) yazılırdı: «Osmanlı hökuməti nə qədər ki, bütün ölkəyə şamil bir islahatdan söz edir və İstanbulda bir konfransa lüzum görmürsə, İngiltərə də bu islahatı kafi saymır və dövlətlərarası anlaşmanın təmini üçün konfransın keçirilməsini zəruri bilir». (22)

İngiltərənin Osmanlı ermənilərinə marağının və onun bir «məsələ» kimi ortaya çıxarılmasında güddüyü məqsədin açıqlanması Böyük Britaniya və Rusiyanın Orta Şərqdəki geostrateji mənafelərinin qarşılaşdırılmasını da şərtləndirir. Bununla bağlı yenə də ingilis diplomatiyasının müvafiq yazışmalarının (sənədlərinin) incələnməsi vasitəsilə bəzi məsələlərə aydınlıq gətirilməsinə ehtiyac vardır. Həmin sənədlərdən bəzilərində – xarici işlər naziri J.Resselin İstanbuldakı səfir H.Bulwerə ünvanladığı (13.IX və 18.X.1860; 12. II.1863), başqa bir böyük elçi Layardın digər baş diplomat Derbiyə göndərdiyi (4.XII.1877) məktublarda (23) və 1877-1878-ci illər rus-türk müharibəsi ərəfəsində İstanbula göndərilən ingilis fövqəladə təmsilçisi M.Solsberinin sultana yazdığı (20.XII.1876) raportunda (24) diqqətimizi cəlb edən başlıca məqamlar ümumiləşmiş şəkildə belə ifadə oluna bilər:

**1.** Rusiyanın Osmanlı ilə bağlı yeritdiyi siyasətin əsas hədəflərinə və onlara yetişilməsi yolları – vasitələrinə dair ingilis dəyərləndirilməsi.

**2.** Çarlığın Ottoman Portası ilə əlaqədar planlarının gerçəkləşdirilməsinin İngiltərə üçün yaradacağı problemlərin təhlili.

**3.** İngilis diplomatiyasının qənaətləri və sultan hökumətinə tövsiyələrinin xarakteri.

**Birinci** məqamın detallarına vardıqda J.Resselin öz hökumətinin mövqeyini ifadə edən və elmi-siyasi maraq doğuran bəzi fikirləri üzərində dayanılmasına lüzum görürük. Nazirin nəzər nöqtəsinə görə, «Türkiyənin qərarlı bir düşməni var; zaman-zaman vəfalı görünən laqeyd dostu Rusiya» (H.Bulwerə 1863-cü il 12 fevral tarixli məktubdan). (25) Daha sonra Rusiyanın Osmanlıya dair niyyətlərini açıqlayan ingilis baş diplomatı səfir H.Bulwerə məktubunda (13.IX.1860) bunları yazırdı: II Yekaterina zamanından Krım savaşının başlanğıcına qədər Rusiya Osmanlı xristianlarını təsiri altına salmağa səy göstərmişdir; 1856-cı il sülhündən başlayaraq Osmanlı hökumətindən xristian təbəələr vasitəsi ilə bir sıra haqlar istəməyə çalışmışdır; yüz ildən daha çox bir zamandan bəri

Rusiyanın hədəfi dəyişməmişdir və Avropanın qısqanclığı üzündən birbaşa təsiri altına ala bilmədiyi bu ölkəni dolayısıyla himayəsinə keçirməyi özünə məqsəd etmişdir. (26)

J.Ressel habelə Rusiyanın siyasi-diplomatik dairələrində, Osmanlı dövləti ilə bağlı, güdülən məqsədlərin reallaşdırılması yollarına (taktikasına) dair fərqli baxış-mövqeləri də vurğulamışdır. Onun H.Bulwerə məktublarından birindən (12.II.1863) görünür ki, o dövrdə Rusiyada Osmanlıya düşmən iki qrup seçilirdi: **1-cisi**, Türkiyəni mümkün olduğu qədər sürətlə (tezliklə) parçalamaq istəyənlər (I Nikolay). **2-cisi**, daha tədbirli-hiyləgərliklə hərəkət edib Osmanlını daimi sabitsizlikdə saxlamağa və daxildə qarmaqarışıqlıqlar salmaqla böyük xərclərə səbəb olaraq onu fəaliyyətsiz duruma gətirməyə çalışanlar.

İngilis baş diplomatının fikrincə, hər iki xəttin əsas hədəfi Osmanlının bölünməsinə nail olmaq idi. Belə bir duruma (şəraitə) Avropanın böyük dövlətlərinin münasibətlərini də açıqlayan J.Ressel Osmanlını «...dəstəkləyəcək yeganə vəfalı dost olaraq İngiltərə və Avstriya qalmaqdadırlar», - deyə yazırdı. Burada habelə bu «dostlar»dan istəniləcək dəstək üçün tələb olunan şərait – Osmanlının daxilən qüvvətliliyi və sabitliyi zərurəti də önə çəkilirdi.

**İkinci** məqamla bağlı məsələlər nəzərdən keçirildikdə Osmanlı ermənilərinə dair ingilis siyasətinin alt qatlarındakı bir sıra konkret istəklər (niyyətlər) üzə çıxır. Onların bir qismi (başlıcaları) İstanbuldakı səfir Layardın Derbiyə ünvanlanan 1444 saylı gizli məktubunda (4.XII.1877) öz əksini tapmışdır. (27) Avropa dövlətlərinin Rusiya ilə Türkiyə arasındakı sülh şərtlərinə (söhbət 1877-1878-ci illər müharibəsindən gedir – İ.M.) etinasız yanaşdıqlarını nəzərə çatdıran böyük elçi ingilis diplomatiyasının məqsədini (mahiyyətini) kifayət qədər açıqlayır: «Rusların Ermənistanın (Şərqi Türkiyə nəzərdə tutulur – İ.M.) bütününü və ya bir qismini alması bizim Doğudakı nüfuz və mənafelərimiz üçün təhlükəlidir... Bu baxımdan həmin məsələni iş-işdən keçmədən düşünməliyik».

Layard «Ermənistan»ın (Doğu Türkiyənin) və ya onun şərqinin Rusiyaya keçməsinin nəticələrinə dair mövqeyini aşağıdakı mülahizələrlə əsaslandırmağa çalışmışdı:

**a)** Rusiyanın belə bir uğurunun onun Orta Asiya, Hindistan müsəlmanlarına təsirini gücləndirməsi və İngiltərənin isə bu prosesi əngəlləyə bilməməsi (Səfir Kaşğarlı Yaqub xanın və türk qəzetlərinin də bu baxışı bölüşdürdüklərini və mətbuatın bununla Osmanlının savaşda İngiltərənin dəstəyini qazanmasına çalışmasını yazırdı);

**b)** çarlığın Kiçik Asiya və İranda daha bir istilaya getməsinin asanlaşması. Həmin mülahizəni incələdikdə səfirin yetərincə əsaslı sayıla biləcək bu kimi dəlilləri ilə razılaşmamaq olmur:

- Rusiyanın Batum, Qars və Vanı ələ keçirməsi Kiçik Asiya və bütün İranı onun təsiri altına salar;
- Şimali-Şərqi Qara dənizin yeganə limanı olan Batuma sahib olmaqla Azərbaycana, Quzey-Doğu Anadoluya və Boğazlara edi-

ləcək hərəkətdə üstünlük qazanmaq mümkündür;

- Batumdan Qarsa asanlıqla çıxıla bilir və bütün Ermənistana ağalıq etmək imkanı yaranır. Onlara yiyələnməklə Şərqi Anadolunun qapıları Rusiyanın üzünə açılar. Van və s.-in tutulması ilə Dəclə-Fərat hövzəsinə çıxıla bilər;
- rusları Ermənistan yaylasından irəli buraxmamaq lazımdır;
- çarlığın Orta Asiyanın müstəqil ölkələrini müxtəlif oyunlarla ələ keçirməsi halında durum daha da pis olar;
- rusların Hindistana hərəkətini xəyalın məhsulu kimi qəbul edənlər vardır. Fəqət vəziyyəti yaxşıca incələsək bu ehtimalın xəyal olmaqdan çıxa biləcəyi də görünür.

**c)** İngiltərənin Hindistanla əlaqəsinin (rabitəsinin) əngəllənməsi. Digər bir ingilis diplomatı, Fransadakı səfir lord Leonsun — nazir Derbi tərəfindən 1877-ci il noyabrın 20-də ona göndərilən — 328 saylı gizli yazısından da yararlandığını qeyd edən Layard bu mülahizə ilə əlaqədar da çox ciddi problemlərə toxunurdu:

- Fransa quru və dəniz qüvvələrini surətlə yeniləşdirməklə Misirdə İngiltərənin nüfuzunu qısqanmaqda davam etməkdədir;
- Şərq məsələlərinə dair bir konfransda Fransanın Misiri Türkiyədən ayırmaq təklifi və oraya birgə himayə tövsiyəsi ehtimal olunur;
- Fransa fürsət tapan kimi Misirdə tam hakimiyyət qura bilmək üçün əlindən gələni edər. Və buna görə də İngiltərənin Süveyşdən məhrumolma təhlükəsi böyükdür. Bu səbəbdən də Hindistana yetişmək üçün başqa bir yol tapmaq son dərəcə önəmlidir. Bu yol isə Fərat və Dəclə vadiləri ola bilər;
- Ermənistan və həmin vadilərə yaxın yerlər ruslara keçərsə bu yol İngiltərə üçün təhlükəsiz olmaz. Həmin ərazilər yalnız Osmanlının əlində olarsa İngiltərə arxayınçılıq keçirə bilər. Bu baxımdan İstanbulu İran körfəzi ilə əlaqələndirən bir dəmir yolu həm İngiltərənin, həm də Türkiyənin xeyrinədir. İngiltərə Türkiyənin dostluğu və yardımı ilə, Süveyşdən asılı olmadan, Hindistana yetişən bir yola qovuşa bilər;

**ç)** dolayısı ilə İngiltərə ticarətinə təsir göstərməsi. Səfirin bununla bağlı gəldiyi nəticə də əsaslı sayıla bilər. Belə ki, Rusiyanın Ermənistana və Batum limanına yiyələnməsi ilə Osmanlının Asiya torpaqlarına və Şimali İrana (Güney Azərbaycana) gedən yolu da ona keçirdi. O dövrdə Trabzon və Ərzurumdan keçən ticarət yolunun Batuma yönəldiyi nəzərə alınarsa, onda bir tərəfdən, ingilis malları ağır vergilərlə üzləşə bilər (bəlkə də əngəllənər) və, digər tərəfdən də, Böyük Britaniyanın Qərbi Asiya ilə hazırkı ticarəti dayanardı.

**Üçüncü** məqamla – ingilis diplomatiyasının qənaətləri və Osmanlı hökumətinə tövsiyələrinin xarakteri ilə bağlı da düşündürücü bir siyasi mənzərəyə rast gəlinir. Həmin qənaət-tövsiyələri də tezisvari belə səciyyələndirmək olar:

- Rusiyanın bütün «Ermənistan»ı və ya onun bir hissəsini (Ana-

dolunun doğusu başa düşülməlidir – İ.M.) ələ keçirməsi İngiltərənin Şərqdəki nüfuzu və həyati mənfəətləri üçün təhlükəlidir (Layardın Derbiyə gizli məktubundan — 4.XII.1877);

- çarın sultanı müharibə və s. ilə təhdid etdiyi bir durumda Osmanlını dəstəkləyəcək tək vəfalı dost kimi yalnız İngiltərə və Avstriya qalmaqdadırlar (J.Resselin H.Bulwerlə yazışmalarından – 12.II.1863);
- İngiltərənin türk imperatorluğunu qorumaq istəyi yalnız öz xeyri üçün deyildir (?! – İ.M.). Bu niyyət həm də Osmanlı imperiyasının dağılmasının Avropa müharibəsinə çevrilə və qüvvələr nisbətinin (tarazlığının) təhlükəli şəkildə pozula bilməsi əndişəsindən qaynaqlanır (yenə də həmin yazışmalardan – 13.IX.1860);
- Osmanlı ölkəsində bir çox xalqlardan olan insanlar yaşayırlar. Həmin xalqların indiki vəziyyətlərinə (?! - İ.M.) görə onları idarə edə biləcək durumda olanı, səhvləri (?!-İ.M.) nə olursa-olsun yalnız türklərdir. Türk imperatorluğunu əmələ gətirən torpaqlardakı bu müsəlman dövlətin idarəsini xristianlarınkı ilə dəyişdirməyə əsas yoxdur. Bunun nəticəsi Türkiyənin bölünməsi və dağılması demək olardı (J.Resselin H.Bulwerə məktubundan – 13.IX.1860);
- Osmanlının xristian təbəələrinin qorunmalarına beş dövlətin ortaq himayəsinin həyata keçirilməsi çox çətindir. Beş dövlət arasında — qurumu İstanbulda yerləşməklə - çox yaxşı bir koordinasiya lazımdır. Türk rəhbərliyinin beş böyük dövlətdən birini digərinə qarşı istifadə etməsinə əsas (imkan) verilməməlidir. Tərəfsiz davranılmalı və təmsilçilər arasında rəqabətə girişilməməlidir (J.Resselin H.Bulwerə ünvanladığı (13.IX. və 18.X.1860) məktublardan);
- türk torpaqları ümumiyyətlə verimlidir və zəiflik, mərkəzi idarənin çox pis (?! – İ.M.) olması dövləti yoxsul etməkdədir. İmperatorluğun qorunması ilə bu ölkədə yaşayanların həyat səviyyələri də yüksələr (J.Resselin H.Bulwerə məktubundan – 13.IX.1860);
- sultan diqqətini, **1-cisi,** hər kəsin can və mal təhlükəsizliyini təmin etməyə, **2-cisi,** yaxşı ədalət (?! – İ.M.) və maliyyə sistemlərinin qurulmasına (sonuncu ilə bağlı ingilislərdən yardım istənilərsə Türkiyədə uzun müddət qala biləcək bir mütəxəssis göndərilməsinin mümkünlüyü bildirilirdi – İ.M.) və, **3-cüsü** isə, ordunu əl altında tutaraq onun hərtərəfli təchizatına yönəltməlidir. Qüdrətsiz, zalim (?! – İ.M.), rüşvətxor valilərin və ədalətli olmayan (?! – İ.M.) hakimlərin verəcəyi zərər iyirmi Xətti Hümayunun gətirəcəyi rifah və səadətdən daha çoxdur (J.Resselin H.Bulwerə məktubundan – 12.II.1863);
- Osmanlının hərbə (1877-1878-ci illər rus-türk müharibəsinə işarə edilir – İ.M.) girməməsi üçün sultan hökumətinin islahatlar aparması və bəzi digər şərtlərlə razılaşması zəruridir. (Adı çəkilən savaşönü İngiltərə fövqəladə təmsilçisi – İstanbul kon-

fransındakı nümayəndələrdən biri lord M.Solsberinin sultan II Əbdülhəmidə ünvanladığı (20.XII. 1876) raportdan). (28)

Bütün bunlardan aydın surətdə görünür ki, Asiyadakı, ələlxüsus da Orta Şərqdəki rus-ingilis rəqabəti hələlik çarlığın üstünlüyü şəraitində davam etməkdə idi. İngilislərin bu regiondakı tarixi-həyati maraqları ciddi təhlükə ilə qarşılaşmışdı. Belə bir şəraitdə İngiltərə Osmanlı xristianlarını müdafiə bəhanəsi ilə onun daxili işlərinə müdaxiləsini daha da qüvvətləndirdi. Anadolu ermənilərinin «problemlərinin həlli»nə ingilis himayəsi sistemli şəkil aldı.

***

Rusiyanın Şərqə doğru bütün istiqamətlərdə genişlənən istilalarının, kilsənin «Böyük Ermənistan»ı bərpa etmək səylərinin və İngiltərənin öz geosiyasi-iqtisadi mənafelərini Osmanlı ermənilərindən yararlanmaqla qorumaq siyasətinin üst-üstə düşmələri ilə «erməni məsələsi» yaradıldı. Bu üç qüvvə XIX əsrin 70-ci illərinin sonlarındakı hərb, müqavilə və konqreslərlə «erməni məsələsi»ni birbaşa ortaya çıxardı. Böyük Britaniya isə onu əslində bir «ingilis məsələsi» (29) halına gətirdi. Sonrakı hadisələr və proseslər bunu tamamilə təsdiqləmiş oldu.

## ƏDƏBIYYAT


1. Türkiye Cümhuriyeti Başbakanlık Osmanlı Arşivi (T.C.BOA), Hariciye Nezareti, Endikatör: Tercüme Siyasi, Karton no: 101, iç no: Evrak no: 277.
2. Osmanlı Belgelerinde Ermeniler, Cilt VII (1.1889 - 7.1.1890). İstanbul, 1988, s. X.
3. Banoğlu N.A. Ermeninin Ermeniye Zülmü (Belgeleri ile). Ankara 1976, s.21.
4. Baxın: B.Şimşir, İngiliz Belgelerinde Osmanlı Ermenileri (1856-1880), İstanbul, 1986.
5. Gürün K. Ermeni dosyası. İstanbul, 1988, s.57-58.
6. T.C.BOA, Hariciye Nezareti, Endikatör: Müteferrik Tercüme, Karton no: Siyasi-III, Kutu no: 1329; Endikatör: İdari-I, Karton no: 13447/1.
7. Sitat K.Gürünün göstərilən kitabından (s.107) gətirilir (Mənbə: H.Pasdermadjian, Histoire de L'Armenie, s.369).
8. K.Gürün. Adıçəkilən kitab, s.99; A.Debidur. arxada, II cild, s.80.
9. B.Şimşir. Göstərilən kitab, s.11 və ya 14 saylı sənəd (Qaynaq: Blue Book, Türkey, №17 (1877), bölüm II, s.89-91, №80).
10. Yenə orada, s.47-48 və ya 1-2 saylı sənədlər (Qaynaq: Yenə orada, s.1, №1,s.5, №9).
11. Yenə orada, s.49-51 və ya 6,7 saylı sənədlər (Qaynaq: Yenə orada, bölüm II, s.83-85, №67,69).
12. Yenə orada, s.51-52 və ya 8 saylı sənəd (Qaynaq: İngiliz Konsolosluklarından... alınan raporlar, Londra, 1861, s.1-3, №1).
13. Yenə orada, s.51-54 və ya 8-9 saylı sənədlər (Qaynaq: İngiliz Konsolosluklarından ... alınan raporlar, Londra, 1861, s.1-3, №1; s.3-4, №2).

14-15. Yenə orada, s.54-65, 74-89 və ya 10-12, 23, 25 saylı sənədlər (Qaynaq: İngiliz Konsolosluklarından... alınan raporlar, s.30-34, №8; s.48-53, №13/1; s.67-69, №18/1 və Blue Book, Turkey, №16 (1877), s.1-3, №1/1; s.16, №13, 13/1).

16. Yenə orada.

17. Yenə orada, s.51-52 və ya 8 saylı sənəd (Qaynaq: İngiliz Konsoloslukларından... alınan raporlar, s.1-3, №1).
18. Yenə orada, s.78-79 və ya 24 saylı sənəd (Qaynaq: Blue Book, Turkey, №16 (1877), s.5, №4).
19. Yenə orada, s.95-100 və ya 27-29 saylı sənədlər. (Mənbə: Blue Book, Turkey, №16 (1877), s.142-145, №86 (əlavələr – 86/1, 86/2; №1 (1878), s.64, №90 (Əlavə – 90/1).
20. Yenə orada, s.72 və ya 19 saylı sənəd (Qaynaq: Blue Book, Turkey, №17/1877), bölüm II, s.110, №130).
21. Osmanlı Belgelerinde Ermeniler, Cilt I (1691-1870), İstanbul, 1987, s. XV-XVIII və 151-152, 171 saylı sənədlər.
22. T.C.BOA, Dosya: Yıldız Esas Evrak, Dosya no: Kısım – 36, Evrak – 130/99, iç no: Zarf-152, Karton: X.
23. B.Şimşir. Göstərilən kitab, s.66-71, 145-147 və ya 14-15, 18, 50 saylı sənədlər (Qaynaq: Blue Book, Turkey, №17 (1877), bölüm II, s.89-91, №80; s.91-93, №83; s.34, №86; F.O. 424/63, s.86-89, №124).
24. T.C. BOA, Dosya: Yıldız Esas Evrak, Dosya no: Kısım – 14, Evrak ... / 17, iç no: Zarf: 126, Karton:11; Osmanlı Belgelerinde Ermeniler, Cilt II (1870-1877), İstanbul, 1987, s.404 və ya 76 saylı sənəd.
25. B.Şimşir. Göstərilən kitab, s.70 və ya 18 saylı sənəd (Qaynaq: Blue Book, Turkey, №17 (1877), s.34, №86).
26. Yenə orada, s. 66 və ya 14 saylı sənəd (Qaynaq: Yenə orada, bölüm II, s.89-91, №80).
27. Yenə orada, s.145-147 və ya 50 saylı sənəd (Qaynaq: F.O. 424/63, s.86-89, №124).
28. T.C.BOA, Dosya: Yıldız Esas Evrak, Dosya no: Kısım-14, Evrak ... /17, iç no: Zarf: 126, Karton: 11; Osmanlı Belgelerinde Ermeniler, Cilt II (1870-1877), İstanbul, 1987, s.404 və ya 76 saylı sənəd.
29. Baxın: Osmanlı Belgelerinde Ermeniler (1915-1920), İkinci Baskı, Ankara, 1995, s. XXII.

## РОЛЬ АНГЛИИ В СОЗДАНИИ «АРМЯНСКОГО ВОПРОСА»

ИСМАИЛ МУСА

### РЕЗЮМЕ

В статье изложены главные цели, преследуемые Англией по созданию так называемого «армянского вопроса».Главное внимание уделено изучению деятельности английского правительства для вынесения «армянского вопроса» на международную арену

Далее, в статье дан анализ действий разных государственных и правительственных структур Королевства Великобритании по созданию и решению «армянского вопроса». Статья написана на основе анализа архивных документов османлинского и английского государств. В ней также учтены некоторые обобщения исторических научных исследований по данной проблеме.

**THE ROLE OF ENGLAND IN CREATION OF “ARMENIAN QUESTION”**

**ISMAIL MUSA**

**SUMMARY**

In this article the author is speaking on main purposes pursuing by England to create so called “Armenian question”. The main attention was paid to learning the activity of the English government for submitting “the Armenian question” to the international arena.

Further one can have the analyses of the action of different state and governmental structures of the Kingdom of Great Britain on the creation and “solution of the Armenian question”. The article was written on the basis of the analyses of the archive documents of the Ottoman and the English states.Here as well the reader world meet some generalizations of the scientific researches with this problem.